## Hakaton Mərhələsi – Tez-tez verilən suallar (FAQ)

**1. Hakaton mərhələsi nə vaxt və harada keçiriləcək?**

Hakatonun yarımfinalı 2025-ci ilin payızında baş tutacaq. Tədbirin dəqiq tarixi və məkanı ən azı 3 həftə əvvəl elan olunacaq.

**2. Hakaton mərhələsinə necə hazırlaşmaq olar?**

Finalçılar üçün 3 blokdan ibarət təlim proqramı nəzərdə tutulub:

- inkişaf alətləri və İT məhsullarının yaradılması üzrə platformada asinxron kurs;
- nümunəvi həllərin müzakirəsi ilə canlı yayımlar (strimlər);
- komanda işi, MVP hazırlanması və piçinq üzrə seminarlar.

Komandanızın qalibiyyət şansını artırmaq üçün hər üç blokda aktiv iştirak etmək tövsiyə olunur.

**3. Hakaton hansı formatda keçiriləcək?**

Komandalara 3–4 müxtəlif keis təklif olunacaq. Siz onlardan birini seçəcək və 3 gün ərzində üzərində yerində işləyəcəksiniz. Sonda hər komanda yekun həllini münsiflər heyətinə təqdim edəcək.

Ən güclü və yaradıcı həllərin müəllifləri layihələrin final mərhələsi və piçinqində iştirak üçün Bakıya dəvət olunacaqlar.

**4. Layihə mövzuları hansı dildə təqdim olunacaq?**

Mövzular iştirakçıların təhsil aldığı dildən asılı olaraq azərbaycan və ya rus dilində təqdim olunacaq.

**5. Komandalar necə formalaşdırılacaq və komanda neçə nəfərdən ibarət olacaq?**

Komandalar təşkilatçılar tərəfindən formalaşdırılacaq. Hər komanda 4–5 nəfərdən ibarət olacaq.

**6. Mentorlar kimdir və onların rolu nədir?**

Mentorlar — İT mütəxəssisləridir. Onlar komandaların işini təşkil etməyə kömək edir, tədris materialları üzrə texniki suallara cavab verir, tapşırıqların şərtlərini və qiymətləndirmə meyarlarını izah edirlər.

⚠️ Mentorlar sizin yerinizə kod yaza və ya tapşırıqları yerinə yetirə bilməzlər. Əks halda, həm komanda, həm də mentor diskvalifikasiya olunacaq.

Amma onlar yanaşmalar, texnologiyalar və həll istiqamətləri ilə bağlı faydalı məsləhətlər verə bilərlər.

**7. Mentorlarla ünsiyyət necə təşkil olunacaq?**

Hər komanda üçün ayrıca WhatsApp qrupu yaradılacaq və hakaton ərzində mentorlarla əlaqə həmin qrup üzərindən qurulacaq.

**8. Hansı texnologiyalardan istifadə etmək lazımdır?**

Bu, layihənin mövzusundan asılı olacaq. Yarımfinala nəzəri hazırlıq üçün tədris materialları Algoritmika təhsil platformasında təqdim ediləcək.

**9. Finalda qaliblər necə seçiləcək?**

Münsiflər heyəti layihələri aşağıdakı meyarlara görə qiymətləndirəcək:

- Texniki keyfiyyət;
- Yaradıcı yanaşma;
- Funksionallıq;
- Təqdimat bacarığı;
- Tamlıq / keisin tələblərinə uyğunluq.

Ətraflı qiymətləndirmə meyarları həm asinxron kurslarda, həm də payızda keçiriləcək hakaton təqdimatında açıqlanacaq.

**10. Qalibləri hansı mükafatlar gözləyir?**

Qalibləri və iştirakçıları dəyərli hədiyyələr və sertifikatlar gözləyir.

**11. Əlavə suallarım olsa, kimə müraciət edə bilərəm?**

Əlavə suallar üçün təşkilatçılara bu ünvana yaza bilərsiniz:
**s.support_az@alg.team**